ISSN: 2181-4341, IMPACT FACTOR ( RESEARCH BIB ) – 7,245, SJIF – 5,431

**Ulduz Fərhad qızı QƏHRƏMANOVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**
**Ədəbiyyat kafedrasında baş müəllim**
**Email: ulduzkahraman1@gmail.com**
**Orcid İD: 0009-0003-4418-9319**

# KINAYƏ TƏNQIDI GÜLÜŞÜN TƏZAHÜR FORMASıNDAN BIRI KIMI

**Annotasiya:** Məqalədə tənqidi gülüşün mahiyyəti geniş təhlil edilmişdir. Həmçinin həmin təhlillərdə tənqidi gülüşün təzahür forması olan kinayənin mahiyyəti gətirilən nümunələr üzərində izah edilmişdir.

**Açar sözlər:** tənqidi gülüş, kinayə, tərif edilməklə yaradılan kinayə növü, tənqid edilməklə yaradılan kinayə növü, M.Ə.Sabir poeziyası.

As it turns out, critical laughter is artistic laughter that constantly fights with society. When a writer writes satire, he writes down any public event with anger, and expresses his hatred through bitter laughter. Therefore, the laughter caused by the criticism of various circles of society by the artist is satire, sharp laughter. Because satire fights with social defects, the consequences of cultural backwardness, and moral disability by choosing a way to ax and throw away the smelly, rotten, irremediable social defects. Satirical literature sheds light on social problems in the society by exaggerating the social defect and ugly side of the person. Exaggeration is always present in true satire. In fact, satire is a path that leads society to spiritual and moral improvement. Perhaps there is no other important way to replace satire in terms of purifying society.

For a sarcastic expression, calmness is the main condition, not excitement, high tone, anger. Words spoken in a calm, casual manner have a deeper and more serious meaning. So, sarcasm is a sarcastic, sarcastic, scornful attitude towards people, events and stories. However, this attitude is expressed with restraint, calm and cool tone. It seems to us that the criticized, mocked person, event, story is praised. In irony, the word is used figuratively rather than literally.

**Key words:** critical laughter, irony, the type of irony created by praise, the type of irony created by criticism, M.A. Sabir's poetry

Məlumdur ki, tənqidi gülüş satirik gülüşdür. Satira ancaq ifşaedici, öldürücü, kəskin, kinayəli gülüşdür. Tənqidi gülüş gülüş dərin və ciddi gülüşdür. Kəskin, öldürücü gülüşdə sənətkarın nifrəti hiss olunur. Çünki satirada sənətkarın danışdığı əhvalatda əslində gülüş doğuran heç nə olmur. Sadəcə olaraq sənətkarın danışdığı əhvalat o dərəcəyə çatıb ki, mühit, insanlar o qədər pisləşib ki, sənətkar onlara kinayəli münasibət bəsləyir və sənətkar tərəfindən kəskin tənqidi gülüş yaranır. Əslində isə sənətkarın danışdığı əhvalat acınacaqlı vəziyyət, tənqiddir.

Yazıçı gülməlini, gülüncü həyatdan mənimsəyir, ətraf mühitdən seçib götürür və onu yüksək sənət səviyyəsinə qaldıraraq oxucunu, tamaşaçını güldürür. Beləliklə, komik sənət gülüşdən (gülüncdən) başlayır və gülüşlə bitir. (14, 37-38") "Komiklik insanı həqiqətə, düzlüyə, ülviliyə aparan şəffaf bir yoldur". (U.Q.)

Göründüyü kimi, tənqidi gülüş cəmiyyətlə fasiləsiz mübarizə aparan bədii gülüşdür. Yazıçı satira yazarkən qəzəblə hər hansı bir ictimai hadisəni qələmə alır, nifrətini acı gülüş yolu ilə verir.

Deməli, cəmiyyətin müxtəlif dairələrinin sənətkar tərəfindən tənqidi ilə bağlı yaranan gülüş satiradır, kəskin gülüşdür. Çünki satira iylənmiş, çürümüş, müalicəsi mümkün olmayan sosial eyibləri baltalayıb atmaq yolunu seçməklə ictimai qüsurlarla, mədəni geriliyin fəsadları ilə, mənəvi şikəstlik ilə mübarizə aparır. Satirik ədib insanın ictimai qüsurunu, eybəcər tərəfini qabartmaqla cəmiyyətdəki ictimai problemə işıq salmış olur. Əsl satirada mübaliğə həmişə olur. Əslində satira cəmiyyəti mənəvi-əxlaqi kamilləşməyə aparan bir yoldur. Cəmiyyəti təmizləmək baxımından satiranı əvəz edəcək II əhəmiyyətli yol bəlkə də yoxdur.

1.Kinayə, ironiya, tənə, istehza, rişxənd bir-birinə sinonim olan terminlərdir. Müəyyən bir fikrə dolayı yolla, üstüörtülü şəkildə münasibət bildirməkdir. Kinayə (ironiya, tənə) kobud şəkildə ələsalma, rişxənd, lağa qoymaqdır. Kinayə ərəb sözü olub tənə etmək, toxunmaq mənasını bildirir. İroniya termini də yunanca “eironeia” sözündən olub hiyləgər, gizli istehzalı gülüş deməkdir. Kinayə bədii gülüşün təzahür forması olub satiranın ən qüvvətli tərkib hissəsidir. Satiranın gücü kinayədən aslıdır. Məsələn: Əgər zəif cüssəli bir adamın pəhləvanlığından, hamının qorxaq kimi tanıdığı adamın şücaətindən, qəhrəmanlığından danışılırsa, bu kinayə, ironiyadır. Məsələn: Qacarın dediyi:

Vətən! Çoxmu sevir məni o vətən?

Mənə həcv yazır hər yoldan ötən! (S.Vurğun “Vaqif” dramı)

misraları kinayədir. Çünki Qacar öz vətənində sevilmədiyini yaxşı bilirdi.

Kinayə xarakteri daşıyan ifadə üçün həyəcan, yüksək ton, hiddət deyil, sakitlik əsas şərtdir. Sakit, adi şəkildə deyilmiş sözlər daha dərin və ciddi məna kəsb edir. Deməli, kinayə insana, hadisə və əhvalata tənəli, istehzalı, rişxəndli münasibətdir. Ancaq bu münasibət təmkinlə, sakit və soyuqqanlı ahənglə ifadə olunur. Bizə elə gəlir ki, tənqid edilən, lağa qoyulan şəxs, hadisə, əhvalat sanki təriflənilir. Kinayədə söz öz həqiqi mənasında yox, məcazi mənasında işlənir. Məsələn: M.Ə.Sabirin satiraları başdan-ayağa kinayə üzərində qurulmuşdur. Onun “Ata nəsihəti” satirasına nəzər salsaq görərik ki, ata elm öyrənməyə çalışan oğlunu, düşdüyü yaman yoldan çəkindirməyə çalışır. Bu məqsədlə ona belə “öyüd” və “ağıl” verir:

Bəsdir, ey oğul, boş yerə bu elmə çalışma,

Qanın tələf oldu!

Gündüz, gecə səy eyləyibən dərsə alışma,

Canın tələf oldu!

Bu şəhrdə çoxdur, görürəm, elm oxuyanlar,

Onlar nə tapıblar?

Divanədilər malını bu yolda qoyanlar,

Guya ki, yatıblar... (13, 81).

“Nəsihət” bu ruhda davam edir. Ata oxuyanların aləmi qarışdırıb həm özlərini, həm də ətrafı incitdiklərini əsas gətirir. Bununla, öz mövqeyinin doğruluğunu sübut etməyə çalışır. O, pislədiyi, bəyənməyib zərərli hesab etdiyi yolun əvəzinə oğluna belə bir yolu “məsləhət” görür:

Bundan sora qıl tövbə dəxi, məktəbə getmə,

Bircə usan, oğlum!

Ta baxma müəllim sözünə, ta əməl etmə,

Axır utan, oğlum!

Çıx dağa, daşa, yol kəsibən qarətə başla,

Axırda qaçaq ol;

Sal bir beşatan boynuna, bu adətə başla;

Həmmali-yaraq ol,

Xəlqə dadanaq ol,

Hər işdə sayaq ol,

Var cana ziyanı

Qeyrətdən uzaq ol!... (13, 81).

“Ata nəsihəti” satirasında oğlunu dərsdən, məktəbdən, elmdən çəkindirməyə çalışan ataya sənətkarın kinayəsinin şahidi oluruq. Sabirin bu satirası M.Füzulinin məşhur “Leyli və Məcnun” poemasında atasının Məcnuna nəsihətindən bəhrələnməklə yazılmışdır. Professor M.Məmmədov həmin satira ilə bağlı “Hophopnamə”nin (13, 81-82) “İzah və şərh”lərində yazır: “Bu şeir Füzulinin “Leyli və Məcnun” poemasında Məcnuna atası tərəfindən edilən nəsihətə bənzətmədir.

Kinayənin gücü, bədii dəyəri onun ictimai mənasındadır. Kinayə məcaz növüdür, yəni bədii-ifadə vasitəsidir, onun yeri-yurdu, fəaliyyət sahəsi satirik və yumoristik əsərlərdir. Kinayədə sətiraltı mənaya üstünlük verilir. Sətiraltı məna adətən kinayəli ifadənin, satiranın, yumorun, atalar sözləri və lətifələrin alt qatında gizlənir. “Kinayəni məcazi söz yox, məcazi gülüş hesab etmək daha doğru olardı. Lap əslində kinayə təkcə məcazi gülüş deyil, ümumiyyətlə, tənqidi gülüşün əsas yaradıcısı, mayasıdır”. (4, 33)

İstehza satirik əsərlərdə zəhərli gülüşün ifadəsidir. İstehza danışan yaxud yazan adamın, haqqında bəhs etdiyi şəxsdən, şəxslərdən üstün olması nəticəsində meydana çıxan bir haldır. İstehzaya satirik şeirlərdə daha çox rast gəlinir. Məsələn: M.Ə.Sabirin satirik şeirləri istehza içindədir.

Millət necə tarac olur, olsun, nə işim var?!

Düşmənlərə möhtac olur, olsun, nə işim var?!

2.Sarkazm, təriz bir-birinə sinonim olan terminlərdir. Sarkazm yunanca “parçalama”, “dağıtma”, “iztirab” mənaları daşıyan, qəzəbli gülüş deməkdir. Sarkazm kinayənin ən son kəskin, şiddətli pilləsidir. Sarkazmda istehza, tənə daha yüksək mərhələyə çatır. Burada qəzəb, nifrət hissi özünü göstərir. Sarkazm öldürücü gülüşdür. Sarkazmla kinayənin fərqi:

- Kinayə sakit bir tərzdə, ciddi, soyuqqanlıqla deyilirsə, sarkazm şiddətli, gərgin, həyəcanlı tərzdə deyilir.
- Kinayədə nifrət, sarkazmda qəzəb hissi var.

Məmməd Əliyeyə əsaslanaraq kinayənin aşağıdakı növlərini müəyyənləşdirə bilərik:

1.Tərif etməklə tətbiq edilən kinayə növü. Məsələn: M.Ə.Sabirin İran şahının dilindən yazılan “Mən şahi-qəvişövkətəm,..” (13, 121) sözləri ilə başlayan satirasında satirik tip özünü belə öyür:

Mən şahi-qəvişövkətəm, İran özümündür!

İran özümün, Rey, Təbəristan özümündür!

Abad ola, ya qalsa da viran, özümündür!

Qanuni-əsasi nədi, fərman özümündür!

Şövkət özümün, fəxr özümün, şan özümündür!

Vermişdi atam gər sizə qanuni-əsasi,

Bir molla kişiydi, var idi hilmi, həyasi,

Bilməzdi nədir leyk, ümurati-saiyasi;

Ey həmşəri, sən əyninə gey bitli libasi!

Xələt özümün, təxti-zərəfşan özümündür!

Şövkət özümün, fəxr özümün, şan özümündür! (13, 121).

Göründüyü kimi, şah özünü öyərək “dövlətçilik”, “idarəçilik” bacarığını nümayiş etdirir. Atası Müzəffəreddin şahın “bir molla kişi” olduğunu, siyasət nə olduğunu bilmədiyi üçün ölkədə “qanuni-əsasi” elan etməsindən narazı qaldığını bildirir. Elan edir ki, ölkədə demokratiyadan söhbət belə gedə bilməz. Ölkə, onun varlığı və bütün sərvəti mənə məxsusdur. Ona görə hökm və fərman vermək səlahiyyəti də mənə məxsusdur. Özü də ölkənin abad, ya bərbad olmasının heç kəsə dəxli yoxdur. Çünki mən mütləq hakiməm. Satirik tip bütün bu səlahiyyət və imkanlarını bildirdikdən sonra özünün eybəcər daxili sifətləri haqda belə məlumat verir.

2.Tənqid etməklə tətbiq edilən kinayə növü: Məsələn: Yenə də M.Ə.Sabirin İran şahının dilindən yazılan “Mən şahi-qəvişövkətəm,..” (13, 121) sözləri ilə başlayan satirasındakı satirik tipin özünü öymə səhnəsinə nəzər salaq:

İranlı deyil, cümlə bilir Məndəliyəm mən,

Gürgani-cəfavü sitəmin çəngəliyəm mən,

İranlıların başlarının əngəliyəm mən,

Sorram, içərəm qanlarını-çün zəliyəm mən,

Laşə özümün, ət özümün, qan özümündür!

Şövkət özümün, fəxr özümün, şan özümündür!

Gördüz ki, necə sizləri tədib elədim mən!

Baqqal balasın leşkərə sərtib elədim mən!

Atəşlə yaxıb məclisi tərxib elədim mən!

Quranı danıb, andı da təkzib elədim mən!

Sövgənd nədir, əhd nə, fərman özümündür!

Şövkət özümün, fəxr özümün, şan özümündür! (13, 121-122)

Bu öyünmələr davam etdikcə İran şahı Məhəmmədəli Mirzənin vəhşi və yırtıcı təbiəti oxucunun gözü qarşısında bütün dəhşəti ilə canlanır. O, vəhşi və yırtıcı olmaqla yanaşı yalançı və hiyləgərdir. Bütün müsbət dəyərlər bu tipə yaddır. Ona görə də xalqa verdiyi vədləri də, Qurana içdiyi andı da danması ilə fəxr edir.

İran şahını özünü bu cür öyüb tərifləməsinə, bəd əməlləri ilə fəxr etməsinə səbəb nədir? Satiradan aydın görünür ki, ölkədə baş qaldıran azadlıq qüvvələrinin xofu şahı hövsələdən çıxarmışdır. Ona görə onların qarşısına bu cür hərbə-zorba ilə, özünü öyməklə çıxır. Şah bir qədər də irəli gedib Təbriz inqilabçılarını vaxtilə ona etimad göstərdiklərinə görə yamanlayır:

Təbrizlilərin kor idimi gözləri əvvəl,

Bir yerdə keçirtdik gecə-gündüzləri əvvəl,

Həqqimdə yox idi oların sözləri əvvəl,

Şah etdilər İranə məni özləri əvvəl,

İndi nə deyirlər dəxi, dövran özümündür!

Qızlar özümündür, gözəl oğlan özümündür! (13, 122)

Bütün bu qınaqlardan, hədə-qorxulardan, fəxr etmələrdən sonra ölkə əhaləsinə həqarətli münasibət bəslədiyini də gizlətmir. Onun rəyinə görə, iranlılar hər cür təhqirə, acınacalı güzərana layiqdirlər. Bu barədə satirada oxuyuruq:

İranlı gərək ömr edə zillətdə həmişə,

Nikbətdə, əsarətdə, məzəllətdə həmişə;

İranlı gərək can verə qürbətdə həmişə!

İranlı, itil, get yaxanı bitdə həmişə!

Xaqan özümün, kişvərü saman özümündür!

Şövkət özümün, fəxr özümün, şan özümündür! (13, 122)

Şahın özünü öyməsi, lovğalanması, ölkəni xarabazara çevirməsi, bütün bunlardan utanmaq əvəzinə fəxr etməsi onun öz həmvətənlərinə həqarətli münasibətindən, həm də vəhşi təbiətindən irəli gəlir. Sabir İran şahını özünü öydürməklə ifşa etmişdir.

Aparılan təhlillərdən də göründüyü kimi, M.Ə.Sabir eyni satiralarının içində kinayənin hər iki növündən məharətlə istifadə etmişdir. Abbas Hacıyev satira haqqında danışarkən kinayə ilə bağlı belə demişdir: "Kinayə insana, hadisə və əhvalata tənəli, istehzalı və rişxəndli münasibətdir. Ancaq bu münasibət təmkinlə, sakit və soyuqqanlı ahənglə ifadə olunur. Elə bil tənqid edilən, lağa qoyulan adam təriflənilir, onun mövqeyində dayanılır, ancaq əslində pis əməlləri pislənilir". (10, 197) Satira yaradıcılığı üçün kinayə və istehzanın olması əsas şərtdir. Satiranın nüvəsində ifşa dayanır. Bu ifşa həcvlərdə birbaşa, yəni ünvanı ilə, təmsillərdə isə alleqorik şəkildə həyata keçirilir.

**Ədəbiyyat:**

1. Abi Aydın "Türkiyə ədəbiyyatı tarixi, Bakı: Bakı Universiteti nəşriyyatı, 2007

2. Abıyev A., "Türk ədəbiyyatında satira", Bakı, Elm, 1991

3. Azərbaycan ədəbiyyatı tarixi, AMEA-nın Ədəbiyyat İnstitutu, 6 cildlik, IV cild, Bakı, 2011

4. Ağazadə Yədulla Bəbir oğlu, Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı, f.ü.e.dok. dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2013

5. Babayev Baba Maqsud oğlu, Azərbaycan realist nəsrində satiranın təşəkkülü, inkişaf mərhələləri və problemləri (1850-1920), filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2012.

6. Cəlal Mir, Xəlilov Pənah, "Ədəbiyyatşünaslığın əsasları", Bakı, Çaşıoğlu, 2005

7. Əlimirzəyev Xalid, "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", Bakı, 2008

8. Əliyev Məmməd, "Ədəbiyyat nəzəriyyəsinin əsasları", Bakı, 2000

9. Əliyev Rafiq, "Ədəbiyyatşünaslığın əsasları", Bakı, 2001

10. Hacıyev Abbas, "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 1999

11. Xəndan Cəfər, "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 1958

12. Qasımzadə Feyzulla, XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 2019

13. Qəhrəmanova Ulduz, M.Ə.Sabir və klassik irs, f.ü.f.d.dissertasiyası, Bakı, 2015

14.Qəzənfər Kazımov, Bədii ədəbiyyatda komizmun üsulları, Bakı, Maarif, 1987

15. Mirəhmədov Əziz, "Ədəbiyyatşünaslıq ensiklopedik lüğəti", Bakı, Azərbaycan Elmlər Akademiyası, 1998

16. Rəfili Mikayıl, "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 1958

17. Şəmsizadə Nizaməddin , "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 2012

18. Hacıyev Tofiq, Satira dili, Bakı, ADU nəşri, 1975

19. Hüseynov F.E.Satirik gülüşün qüdrəti, Bakı, Yazıçı, 1982

20. Məmmədov K, XIX əsr Azərbaycan şeirində satira, Bakı, Elm, 1975

21.Məmmədov K. XX əsr Azərbaycan gülüşü, Bakı: Yazıçı, 1989